

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 251 (23.162)

*29 dekabr 2018-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*



Dekabrın 28-də Böyükşor gölünün üzərində inşa edilən və paytaxtın Ziya Bünyadov prospekti ilə Balaxanı-Binəqədi avtomobil yolunu birləşdirən ümumşəhər əhəmiyyətli yeni avtomobil yolunun açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

Dövlətimizin başçısına layihənin texniki göstəriciləri barədə məlumat verilib.

Ziya Bünyadov prospekti ilə Balaxanı-Binəqədi avtomobil yolunu birləşdirən, paytaxtın nəqliyyat sistemində mühüm əhəmiyyətə malik yeni yolun tikintisi 2017-ci ilin yanvarında və bu ilin mayında Prezident İlham Əliyevin imzaladığı sərəncamlara əsasən həyata keçirilib. Uzunluğu 2,7 kilometr olan yolun tikintisi yüksək keyfiyyətlə və sürətlə aparılaraq yekunlaşdırılıb.

Dövlətimizin başçısı yolun rəmzi açılışını bildirən lenti kəsib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 28-də Türkiyə Respublikasının daxili işlər naziri Süleyman Soylunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

## Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) məruzəsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin

### Qərarı

“Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 14.1-ci maddəsinə uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) məruzəsi nəzərə alınsın.

2. İnsan hüquq və azadlıqlarının təmin edilməsi ilə bağlı məsələlər gündəlik nəzarətdə saxlansın.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 27 dekabr 2018-ci il*

## Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2018-ci ildə fəaliyyəti haqqında illik MƏRUZƏ

Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) muxtar respublikada vətəndaşların hüquq və azadlıqlarının müdafiəsinə yönəlmiş tədbirləri 2018-ci ildə də davam etdirmiş, bu sahədə fəaliyyətini daxil olan müraciətlərin araşdırılması, insan hüquqlarının müxtəlif istiqamətləri üzrə müvafiq tədbirlərin həyata keçirilməsi, preventiv mexanizm funksiyasının icrası, dövlət orqanları, beynəlxalq qurumların Azərbaycan üzrə ofisləri ilə əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində həyata keçirmişdir.

2018-ci ildə Müvəkkilin ünvanına yazılı, şifahi və elektron formada 70 müraciət daxil olmuşdur. Daxil olan müraciətlərin 20-ni şikayətlər, 50-ni isə ərizələr təşkil etmişdir.

Qanunun tələblərinə müvafiq olaraq şikayətlərin Müvəkkilin səlahiyyətlərinə aid olmaması, ərizəçinin hüquqlarının pozulduğu gündən 1 il müddətin ötməsi, təkrar təqdim edilmiş şikayətdə yeni məlumat, fakt və sübutların olmaması səbəbindən 5 şikayətə baxılmasından imtina edilmişdir. 15 müraciət baxılmaq üçün icraata qəbul edilmiş, onlardan 3-ü təmin edilmişdir. 12 şikayətə baxılması zamanı isə hüquq pozuntusu aşkar edilməmişdir.

Müraciətlərə qanunla müəyyən edilmiş müddətlərdə baxılmış və daxil olan müraciətlər cavablandırılmışdır.

2018-ci ildə də Müvəkkil insan hüquq və azadlıqlarının müdafiəsində mühüm əhəmiyyət kəsb edən hüquqi maarifləndirmə sahəsində fəaliyyətini, əsasən insan hüquqlarının müxtəlif istiqamətləri üzrə və müxtəlif sosial qruplara ünvanlanan müvafiq tədbirlərin həyata keçirilməsi, maarifləndirici vəsaitlərin hazırlanması istiqamətində davam etdirmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı”nda nəzərdə tutulmuş tədbirlərin muxtar respublikada təbliği və öyrənilməsi məqsədilə müvafiq tədbirlər keçirilmişdir.

Hər il olduğu kimi, insan hüquqları sahəsində əlamətdar günlər – “18 iyun – Azərbaycan Respublikasında İnsan Hüquqları Günü”, “21 sentyabr – Beynəlxalq Sülh Günü”, “10 dekabr – Beynəlxalq İnsan Hüquqları Günü” müvafiq tədbirlərlə qeyd edilmişdir.

Ümumilikdə, 2018-ci il ərzində Müvəkkil təsisatı tərəfindən insan hüquqlarının müxtəlif istiqamətləri üzrə müxtəlif sosial qruplara ünvanlanmış 74 tədbir keçirilmiş, hüquqi maarifləndirici vəsaitlər təqdim edilmişdir.

2018-ci ildə hərbi qulluqçuların hüquqlarının müdafiəsi və bu sahədə hüquqi maarifləndirmə daim diqqət mərkəzində olmuş, fəaliyyətin əlaqələndirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Əlahiddə Ümumqoşun Ordusu və Naxçıvan Əlahiddə Sərhəd Diviziyası ilə birgə hazırlanmış tədbirlər planına əsasən muxtar respublika ərazisindəki birləşmə və hərbi hissələrdə insan hüquqlarına dair müvafiq tədbirlər keçirilmişdir.

Ötən ildə məhkumların hüquqlarının müdafiəsi və bu sahədə hüquqi maarifləndirmənin həyata keçirilməsi davam etdirilmiş, Ədliyyə Nazirliyi ilə hazırlanmış birgə tədbirlər planına əsasən cəzaçəkmə müəssisələrində insan hüquqlarının müxtəlif istiqamətləri üzrə maarifləndirici tədbirlər keçirilmiş, hüquqi vəsaitlər təqdim edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü ilə 2018-ci ildə Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin tabeliyində olan cəzaçəkmə müəssisələrində 5 məhkum cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş, 4 məhkumun cəzasının çəkilməmiş hissəsi daha yüngül cəza növü ilə əvəz edilmişdir.

Ümumilikdə, 2018-ci il ərzində cəzaçəkmə müəssisələrində cəzaçəkən 9 məhkum barəsində belə humanist tədbirlər tətbiq edilmişdir.

2018-ci ildə Müvəkkil Preventiv mexanizm yurisdiksiyasının şamil olunduğu orqanlar üzrə, ümumilikdə, 31 müəssisədə mütəmadi olaraq və əvvəlcədən xəbərdarlıq edilmədən 80 başçəkmə həyata keçirmiş, preventiv mexanizmin fəaliyyəti ilə bağlı maarifləndirmə tədbirlərində 1300 nəfər iştirak etmişdir.

Bu və ya digər müəssisəyə başçəkmə zamanı saxlanma şəraiti, işçi heyətinin rəftarı, qida rasionu, qidanın keyfiyyəti, tibbi xidmətin vəziyyəti, onların asudə vaxtının təşkili kimi məsələlər xüsusi diqqət mərkəzində saxlanılmış, saxlanılan şəxslərlə görüşlər keçirilmiş, onlarla ümumi və fərdi söhbətlər aparılmış, hüquq və vəzifələri izah edilmişdir.

Qeyd edilməlidir ki, Preventiv mexanizm yurisdiksiyasının şamil olunduğu müəssisələrdə saxlanılan şəxslərin sosial, tibbi, habelə qanunla müəyyən edilmiş digər hüquqlarının təmin edilməsi, həmçinin onların asudə vaxtının təşkil edilməsi üçün müasir standartlara uyğun müvafiq şərait yaradılmışdır.

Müvəkkil aparatında beynəlxalq təcrübə mübadiləsi sahəsindəki əlaqələrin inkişaf etdirilməsi diqqət mərkəzində saxlanılmış, beynəlxalq qurumların Azərbaycan üzrə ofisləri, xarici ölkələrin ölkəmizdəki səfirliklərinin nümayəndələri ilə keçirilən görüş zamanı muxtar respublikada insan hüquqları ilə bağlı həyata keçirilən tədbirlər, təsisatın fəaliyyəti barədə geniş məlumat verilmiş, təcrübə mübadiləsi və bu sahədə maraq doğuran digər məsələlər müzakirə edilmişdir.

2018-ci ildə informasiya və ictimaiyyətlə əlaqələrin təşkili, muxtar respublikanın kütləvi informasiya vasitələri ilə əməkdaşlığın daha da genişləndirilməsi və fəaliyyətin əlaqələndirilməsi istiqamətində işlər davam etdirilmişdir.

Müvəkkilin rəsmi internet səhifəsinin informasiya yükü daha da artırılmış, Müvəkkil və təsisatın insan hüquqları sahəsində fəaliyyətinin işıqlandırılması ilə yanaşı, Naxçıvan Muxtar Respublikasının müasir inkişafı, tarixi-mədəni irsi və turizm potensialının təbliği işi ardıcıl davam etdirilmiş, informasiyaların mütəmadi olaraq yenilənməsi, elektron kitabxana bazasının davamlı zənginləşdirilməsi, elektron müraciət səhifəsinin fəaliyyəti daim diqqət mərkəzində saxlanılmışdır.

Qeyd edilməlidir ki, muxtar respublikanın sosial-iqtisadi inkişafı, bütün sahələrdə müasir çağırışlara əsaslanan yeni üsul və sistemlərin tətbiqi, habelə dövlət orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi, insan hüquq və azadlıqlarının daha səmərəli təmin edilməsi və etibarlı müdafiəsinə geniş imkanlar yaratmışdır.

Müvəkkil təsisatı bundan sonra da üzərinə düşən vəzifələrin yerinə yetirilməsi istiqamətində səylərini daha da artıracaqdır.

## Publisist-politoloq Reyhan Mirzəzadənin “A.S.Qriboyedov: şair-diplomat” kitabı oxunması zəruri olan kitabların siyahısına daxil edilib




Publisist-politoloq Reyhan Mirzəzadənin “A.S.Qriboyedov: şair-diplomat” kitabı “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində 500 nüsxə nəşr olunaraq Naxçıvan Muxtar Respublikası Təhsil və Mədəniyyət nazirliklərinin tabeliyində olan kitabxanalara, Ali Məclisin Naxçıvanşünaslıq Mərkəzinə, Naxçıvan Muxtar Respublika Kitabxanasına, elm, ali və orta ixtisas təhsili müəssisələrinin kitabxanalarına göndərilmişdir.

Xalqımızın tarixi üçün əhəmiyyətli olan bir sıra mühüm məqamların göstərilməsi, eləcə də gənc nəsildə vətənpərvərliyin, milli kökə bağlılığın formalaşdırılmasına xidmət göstərən yaradıcılıq nümunəsi olması nəzərə alınaraq “A.S.Qriboyedov: şair-diplomat” kitabı Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 28 avqust 2017-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş “Oxunması zəruri olan kitabların Siyahısı”na əlavə edilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Tibbi müayinə aparılıb

Muxtar respublikada əhaliyə göstərilən səhiyyə xidmətinin səviyyəsi ilbəil yüksəldilir. Səhiyyə infrastrukturunun yenilənməsi əhalinin sağlamlığının qorunması işində əsaslı dönüşə səbəb olmuşdur. Müasir tibb ocaqlarının tikilib istifadəyə verilməsi, insanların sağlamlığının yaxşılaşdırılması, əhalinin bütün təbəqələrinin keyfiyyətli tibbi xidmətlə təmin edilməsi diqqət mərkəzində saxlanılır. Bununla yanaşı, yüksəkixtisaslı həkim briqadalarının mütəmadi olaraq muxtar respublikaya gəlməsi də aztəminatlı ailələrdən olan xəstələrin müayinə və müalicəsinə hərtərəfli şərait yaradır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin doğum günü münasibətilə Bakı şəhərində yerləşən Akademik Mirəsədulla Mirqasımov adına Respublika Klinik Xəstəxanasının 26 nəfərdən ibarət həkim briqadası dekabr ayında muxtar respublikada əhalini tibbi müayinədən keçirmiş, cərrahi əməliyyatlar aparmışdır. Xəstəxananın baş həkimi Telman İbadovun rəhbərlik etdiyi, tibb elmləri doktorları və namizədlərinin daxil olduğu həkim briqadası dekabrın 22-də Şahbuz Rayon Mərkəzi Xəstəxanasında olmuşdur. Burada 220 sakin tibbi müayinədən keçirilmiş, 45 xəstədə cərrahi əməliyyat aparılmışdır. Həmçinin dekabrın 22-25-də həkim briqadası Ordubad Rayon Mərkəzi Xəstəxanasında 1480 rayon sakinini müayinə etmiş, 65 xəstə əməliyyat olunmuşdur.

Müasir tibbi avadanlıqlarla təmin olunmuş xəstəxanalarda həkimlər üçün lazımi şərait yaradılmışdır.

31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günüdür

# Milli ideologiya və həmrəylik ideyalarının təntənəsi

***Hər bir xalqın tarixi inkişafında mühüm rol oynayan əsaslı amillərdən biri də milli birlik və həmrəylik ideyasıdır. Milli birliyə, həmrəyliyə nail olmayan xalq heç vaxt müstəqil, azad yaşaya bilməz. Bu mənada, dünya azərbaycanlılarını vahid milli ideologiya və həmrəylik ideyaları ətrafında birləşdirən, Azərbaycan xalqının müstəqillik arzularını gerçəkləşdirən, onu əbədi və dönməz edən ümummilli liderimiz Heydər Əliyev dünənimiz, bu günümüz və gələcəyimiz üçün böyük siyasi irs qoyub. 1991-ci il dekabrın 16-da ulu öndərimizin rəhbərliyi ilə keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında "31 Dekabr Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü haqqında" Qərarın qəbul olunması bunu bir daha təsdiq edir.***

Qərara əsasən 1991-ci ilin son günü – 31 dekabrda həmrəylik bayramı ilk dəfə muxtar respublikada qeyd edildi. Dünya azərbaycanlılarının birlik və həmrəyliyi istiqamətində atılmış ilk addım olan bu bayram xalqımızın vahid ideologiya ətrafında birləşməsində mühüm rol oynadı.

Həmin sessiyadakı çıxışında ulu öndərimiz qərarın tarixi-siyasi əhəmiyyətini vurğulayaraq deyib: ***"Dünya Azərbaycan Türklərinin Milli Həmrəylik və Birlik Günü haqqında məsələnin Naxçıvan Muxtar Respublikası Ali Məclisi sessiyasında müzakirə olunması, böyük siyasi əhəmiyyətli qərar qəbul edilməsi Azərbaycan türklərinin uzun illər ayrılıqdan sonra birləşməsi yolunda ilk addımdır. Biz böyük qürur hissi ilə qeyd edə bilərik ki, bu, məhz Naxçıvanda, qədim türk diyarında irəli sürülmüşdür".***

Ötən əsrin sonlarında gedən prosesləri təhlil etdikdə bir daha görürük ki, 1990-cı ildə Naxçıvandan başlanan Heydər Əliyev xilaskarlıq missiyasının əsas qayəsini məhz xalqımızın vahid ideologiya ətrafında birləşməsi təşkil edirdi. Dünya azərbaycanlılarının birlik və həmrəyliyi istiqamətində Naxçıvanda atılmış addım sonrakı dövrlərdə həmin sahədə həyata keçirilən tədbirlərin kütləvi xarakter almasında, xalqımızın həmrəylik, birlik ideyaları ətrafında birləşməsində mühüm rol oynadı. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev dünya azərbaycanlılarının təşkilatlanması prosesinin və vahid ideologiya ətrafında sıx birləşməsinin görkəmli dövlət xadiminin adı ilə bağlı olduğunu vurğulayaraq deyib: ***"Dünya azərbaycanlılarının həmrəyliyi və birliyi üçün ulu öndər çox böyük səylər göstərmişdir. Hələ 1991-ci ildə Naxçıvanda Onun təşəbbüsü ilə 31 Dekabr "Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü" kimi elan edilmişdir. Bu gün, 31 dekabr bizim milli bayramımızdır".***

Həmrəyliyin, birliyin müsbət nəticələri 1991-1993-cü illər ərzində muxtar respublikada görülən məqsədyönlü işlərdə də özünü qabarıq şəkildə göstərdi. Çünki o vaxt elə bir dövr idi ki, Naxçıvan, demək olar, dünyadan təcrid olunmuş, işğal təhlükəsi ilə üz-üzə qalmışdı. Ancaq muxtar respublika sakinlərinin ulu öndərimizin ətrafında sıx birləşməsi, müdrik rəhbərin böyük səyləri və şəxsi nüfuzu hesabına Naxçıvanda çox böyük işlər görüldü. Onlardan ən əhəmiyyətlisi isə, heç şübhəsiz, müstəqil dövlətimizin təməl daşlarını təşkil edən mühüm tarixi qərarların qəbul edilməsidir. Bütün bunlar ona görə mümkün olmuşdu ki, həmin dövrdə respublikada hərc-mərclik baş alıb gedirdisə, Naxçıvanda birlik, həmrəylik mövcud idi. Həmin dövrdə ölkəmizin təsərrüfatı, sənayesi dağılmışdısa, Naxçıvanda bu sahələrdə quruculuq işlərinə başlanılmış, torpaq islahatları aparılmışdı. Təsadüfi deyil ki, 1992-ci il noyabrın 21-də Naxçıvanda yaradılan Yeni Azərbaycan Partiyasının əsas ideoloji xətti də milli birlik, milli həmrəylik, Azərbaycançılıq oldu. Bu ideologiya isə real müstəqilliyə nail olmaq, vahid, bölünməz Azərbaycanı qoruyub saxlamaq və möhkəmləndirmək məqsədlərinə xidmət edir. Xalqımızın milli-mənəvi dəyərlərindən güc alan Azərbaycançılıq ideologiyası ölkədə vətəndaş birliyinin təmin olunması üçün uğurlu təməl rolunu oynayır. Bu, elə bir ideologiyadır ki, Azərbaycan var olduqca o da var olacaqdır.

Həmin illərdə Naxçıvanda görülən mühüm işlərin – istər iqtisadiyyat, istərsə də ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlərdən əldə edilən nəticələrin bütün Azərbaycan miqyasına yayılması arzusunda olan xalqımız 1993-cü ildə ulu öndərimizin yenidən siyasi hakimiyyətə gəlməsini təkidlə tələb edirdi. Görkəmli dövlət xadimi hakimiyyətə gəldikdən sonra Azərbaycan diasporunun və lobbisinin formalaşdırılması istiqamətində ardıcıl, məqsədyönlü siyasət yürütdü. Dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların mütəşəkkil diaspor halında formalaşması və güclənməsi, onların siyasi, iqtisadi fəaliyyətlərini genişləndirməsi bu siyasətin prioritet istiqamətlərini təşkil edirdi. Dünya azərbaycanlılarının müstəqil dövlət, vahid məqsəd ətrafında sıx birləşdirilməsi ideyasının müəllifi olmuş ulu öndərimiz xarici ölkələrə etdiyi çoxsaylı səfərlərdə diasporumuzun nümayəndələri ilə görüşlər keçirdi, onların problem və qayğıları ilə yaxından maraqlandı, Azərbaycan dünyanın ayrı-ayrı ölkələrində məskunlaşmış soydaşlarımız üçün milli iftixar, mənəvi dayaq və güvənc yerinə çevrildi. 2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi isə milli həmrəyliyin ən yüksək zirvəsi, diaspor quruculuğu sahəsində həlledici mərhələnin başlanğıcı oldu.

Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi milli idealların, Azərbaycançılıq ideyalarının gerçəkləşməsi yolunda mühüm addım idi. Qurultay həm də müstəqil Azərbaycanın və eləcə də dünya azərbaycanlılarının həyatında tarixi ictimai-siyasi hadisə kimi yadda qaldı. Qurultaydan sonra diaspor təşkilatlarının fəaliyyətində canlanma yarandı, soydaşlarımızın bir yerə toplaşdığı təşkilatlar dünyanın hər yerində daha aktiv fəaliyyət göstərməyə başladılar.

Görkəmli dövlət xadiminin milli birlik, həmrəylik və Azərbaycançılıq ideyaları bu gün dövlət başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan Prezidentinin bu sahədə həyata keçirdiyi tədbirlər, soydaşlarımızın vahid ideologiya ətrafında birləşməsi yolunda gördüyü işlər, qəbul etdiyi tarixi qərarlar dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılarda milli ruhun yüksəldilməsinə, onların doğma Vətənə bağlılıqlarının artırılmasına səbəb olub.

Cənab İlham Əliyevin 2006-cı il fevralın 8-də imzaladığı Sərəncama əsasən həmin il martın 16-da Bakı şəhərində Dünya Azərbaycanlılarının II Qurultayının keçirilməsi diaspor quruculuğu işinə əsaslı töhfə verdi, 2008-ci il dekabrın 19-da Bakıda Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının iclasında Dünya Azərbaycanlılarının Həmrəylik Xartiyası qəbul edildi. Bu dövrdən etibarən dövlətimizin diaspor siyasəti xaricdə yaşayan soydaşlarımızın daha mütəşəkkil təşkilatlanması nəticəsində yeni mərhələyə qədəm qoydu. 2016-cı il iyunun 3-də Bakıda öz işinə başlayan Dünya Azərbaycanlılarının IV Qurultayında isə bu istiqamətdə görülmüş işlər, qəbul edilmiş qərarlar, tədbirlər geniş müzakirə olundu. Qurultay dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların birlik və həmrəyliyinin təntənəsinə çevrildi.

Bu gün dünya azərbaycanlılarının həmrəyliyinin və mütəşəkkilliyinin güclənməsi, ümummilli ideyalar ətrafında birləşməsi üçün daha geniş imkanlar yaranıb. Azərbaycan dövləti nüfuzlu iqtisadi və siyasi gücə çevrilib, beynəlxalq aləmdə onun nüfuzu xeyli artıb. Bu gün biz dünya azərbaycanlılarının ümumbəşəri və milli-mədəni hüquqlarının, beynəlxalq konvensiyalarda təsbit edilmiş insan haqlarının qorunmasını təmin etmək üçün daha təsirli vasitələrə malikik. Azərbaycanın siyasi rəhbərliyi dünya azərbaycanlılarının Vətənimizə və xalqımıza mənsubluq hissini gücləndirmək, onların ölkəmizin iqtisadi, mədəni həyatında hərtərəfli iştirakını təmin etmək üçün bütün zəruri tədbirləri görür. Bu isə onların milli şüurunu gündən-günə möhkəmləndirir. Odur ki, müxtəlif ölkələrdəki Azərbaycan diaspor təşkilatları soydaşlarımızın təşkilatlanması, səylərinin birləşdirilməsi, onların fəaliyyətlərinin məqsədyönlü xarakter alması naminə daha faydalı iş aparır, ölkəmizi daha yaxından tanıtdırmaq üçün müvafiq tədbirlər həyata keçirirlər.

Dövlət başçısının hər il Dünya Azərbaycanlılarının Həmrəylik Günü ərəfəsində soydaşlarımıza ünvanladığı təbrikləri ulu öndərin siyasi ideyalarına əsaslanan milli həmrəylik siyasətinin bu gün uğurla davam etdirildiyini göstərir. Azərbaycan Prezidentinin bu il dekabrın 25-də dünya azərbaycanlılarına ünvanladığı təbrik məktubunda deyildiyi kimi: ***"Ümummilli lider Heydər Əliyevin Azərbaycançılıq ideyalarını yaşadan müstəqil dövlətimiz milli həmrəyliyin gücləndirilməsinə xüsusi əhəmiyyət verir, dünya azərbaycanlılarının mədəni-mənəvi birliyinin daha da möhkəmləndirilməsi ilə bağlı ardıcıl tədbirlər həyata keçirir. Biz xarici ölkələrdə məskunlaşmış həmvətənlərimizin doğma Azərbaycanla əlaqələrinin dərinləşdirilməsi və ümummilli məsələlərin həllində yaxından iştirakının təmin edilməsi istiqamətində irəli sürülən səmərəli təşəbbüslərə hər zaman dəstək veririk".***

*Hər bir azərbaycanlı üçün doğma Vətənimiz ana qucağı kimi isti, ata əli kimi möhkəm və əmin bir məkandır. Bu yüksək dəyərləri bizə aşılayan isə Vətən sevgisi, milli mənsubluq duyğusudur. Bunu şüurlara hopduran və kütləviləşdirən isə milli ideologiyamız və həmrəylik ideyalarıdır. Nə qədər ki bütün dünyada yaşayan azərbaycanlılar həmrəydir, Azərbaycançılıq ideologiyası ətrafında sıx birləşmişik, heç bir qüvvə bizi sarsıda bilməyəcək.*

**"Şərq qapısı"**

*Naxçıvan şəhərindəki "Duzdağ" otelində 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə muxtar respublikanın ictimai həyatında və yaradıcılıq sahəsində fərqlənən istedadlı yeniyetmə və gənclərin mükafatlandırılma mərasimi keçirilib.*

# Muxtar respublikanın ictimai həyatında fərqlənən gənclər mükafatlandırılıblar



Tədbir Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunun dəstəyi, Gənclər və İdman Nazirliyinin və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin təşkilatçılığı ilə keçirilib.

Tədbirdə çıxış edən gənclər və idman naziri, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin sədri Azad Cabbarov vurğulayıb ki, ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi dövlət gənclər siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Vurğulanıb ki, dövlət gənclər siyasəti Naxçıvan Muxtar Respublikasında da uğurla həyata keçirilir. Son illər gənclərin muxtar respublikanın ictimai-siyasi, iqtisadi-mədəni həyatında fəal iştirakı, bütövlükdə, dövlət gənclər siyasətinin həyata keçirilməsi istiqamətində atılan mühüm addımların nəticəsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması haqqında" 2012-ci il 31 yanvar tarixli Fərmanı doğma diyarımızda gənclərə göstərilən diqqət və qayğının məntiqi davamıdır.

Azad Cabbarov diqqətə çatdırıb ki, muxtar respublikada gənclərin yüksək səviyyədə təhsil almaları, onların cəmiyyətin müxtəlif sahələrində fəal iştirakını təmin etmək üçün ardıcıl tədbirlər həyata keçirilir. Gənclərin intellektual səviyyələrinin yüksəldilməsi, dünyagörüşlərinin formalaşması və asudə vaxtlarının səmərəli keçirilməsi məqsədilə muxtar respublikada gənclik mərkəzləri, kitabxanalar, mədəniyyət evləri, ali təhsil müəssisələrində yeni tədris korpusları, yeni orta məktəb binaları, olimpiya-idman kompleksləri, idman mərkəzləri, muxtar respublikanın rayon və kəndlərində yeni stadionlar tikilərək və ya əsaslı təmir olunaraq istifadəyə verilib.

Nazir bildirib ki, Naxçıvan şəhərinin 2018-ci ildə İslam Mədəniyyətinin Paytaxtı və ölkəmizin Gənclər Paytaxtı olması ilə əlaqədar Naxçıvan şəhərində keçirilən bir sıra ölkə və beynəlxalq səviyyəli tədbirlərdə də gənclərin vətənpərvərlik tərbiyəsinin təbliği, onların yaradıcılıq və elmi potensiallarının üzə çıxarılması diqqət mərkəzində saxlanılıb.

Muxtar respublikada idmanın maddi-texniki və təşkilati-hüquqi bazasının möhkəmləndirilməsi nəticəsində bu gün Naxçıvan beynəlxalq idman yarışlarına ev sahibliyi edir. Yaradılan şəraitin nəticəsidir ki, hazırda muxtar respublikada 40 minədək yeniyetmə və gənc bədən tərbiyəsi və idmanla məşğul olur. Naxçıvanlı idmançılar ölkə və dünya əhəmiyyətli yarışlarda təmsil olunur və uğurlara imza atırlar.

Gənclər və idman naziri Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə gəncləri təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev bildirib ki, fond 2018-ci il ərzində gənclərin müxtəlif layihələrinin həyata keçirilməsini dəstəkləyib, onların intellektual inkişafı, asudə vaxtlarının səmərəli təşkil olunması və müxtəlif layihələrdə birgə iştirakları diqqətdə saxlanılıb. Fond tərəfindən gənclərin maariflənməsi, onların cəmiyyət üçün yararlı kadr kimi formalaşması, fəallıqlarının artırılması məqsədilə təlim və seminarlar, uzunmüddətli layihələr həyata keçirilib. Naxçıvan şəhərinin ölkəmizin Gənclər Paytaxtı seçilməsi ilə əlaqədar olaraq Azərbaycanın müxtəlif bölgələrindən olan gənclər təşkilatları və fəal gənclərin Naxçıvan Muxtar Respublikasına səfərləri də yaddaqalan tədbirlər sırasındadır.

Cəbi Quliyev gəncləri əlamətdar gün münasibətilə təbrik edib, onlara 2019-cu ildə yeni-yeni nailiyyətlər arzulayıb.

Sonra tədbirin simvolu sayılan tortu kəsmək üçün Yeni ilin rəmzi olan Şaxta baba və Qar qız, həmçinin gənclər səhnəyə dəvət olunublar.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının ictimai həyatında və yaradıcılıq sahəsində fərqlənən istedadlı yeniyetmə və gənclər, həmçinin Naxçıvan şəhərinin 2018-ci il üçün ölkəmizin Gənclər Paytaxtı seçilməsi ilə əlaqədar keçirilən "Gənclər Paytaxtında ən yaxşı Yeni Azərbaycan Partiyası rayon (şəhər) Təşkilatının Gənclər Birliyi" və "Gənclər Paytaxtının ən yaxşı tələbə-gənclər təşkilatı", "İlin ən yaxşı saytı" müsabiqələrinin qalibləri qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

Mükafatları Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin sədri Azad Cabbarov, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının icra katibi Anar İbrahimov, Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev təqdim ediblər.

Tədbirdə iştirakçılar arasında viktorina da keçirilib, müxtəlif mövzularda suallar səsləndirilib, hər suala aid 4 variant təqdim olunub. Sonda daha çox suala düzgün cavab verən 5 nəfər Naxtel nömrə qazanıb. Həmçinin tədbirdə fəal iştirak edən 2 nəfər gəncə də mükafat təqdim edilib.

Bayram tədbiri musiqi və rəqs nömrələri ilə davam edib.

**Ceyhun MƏMMƏDOV**

# Naxçıvan Muxtar Respublikasının Konstitusiyasının qəbulundan 20 il ötür

***Naxçıvan Muxtar Respublikasının Konstitusiyasının hazırlanması və qəbulu ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Hələ 1990-1993-cü illərdə Naxçıvanda ulu öndər tərəfindən qəbul olunmuş bir sıra qanunlar təkcə muxtar respublikanın deyil, bütövlükdə, Azərbaycan dövlətinin də gələcək taleyinin müəyyən edilməsində həlledici rol oynamışdır. Belə ki, 1990-cı ilin noyabr ayında ulu öndər Heydər Əliyevin sədrliyi ilə keçirilən Naxçıvan MSSR Ali Məclisinin ilk sessiyasında tarixi qərarlar qəbul olunaraq Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adı Naxçıvan Muxtar Respublikası, Naxçıvan MSSR Ali Sovetinin adı isə dəyişdirilərək Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırılmış, Azərbaycan Xalq Cümhuriyyətinin milli istiqlal rəmzi olan üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edilmişdir.***




Azərbaycan Respublikasının 1995-ci il 12 noyabr tarixli Konstitusiyasının qəbul edilməsi və konstitusiyaya Naxçıvan Muxtar Respublikasının konstitusion hüquqi statusuna həsr olunmuş xüsusi fəslin salınması Naxçıvan Muxtar Respublikasının Konstitusiyasının qəbul edilməsi üçün əsas yaratmışdır. Konstitusiyaya görə, "Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikası tərkibində muxtar dövlətdir. Naxçıvan Muxtar Respublikasının statusu bu Konstitusiya ilə müəyyən edilir. Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsidir".

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 23 dekabr 1995-ci il tarixli qərarı ilə muxtar respublikada yeni Konstitusiya layihəsinin hazırlanması üçün komissiya yaradıldı. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun sədrliyi ilə komissiyanın və onun işçi qrupunun tərkibinə təcrübəli mütəxəssislər, alimlər və ekspertlər daxil edilmişdir. Komissiya Naxçıvan Muxtar Respublikasının yeni Konstitusiya layihəsini hazırlayaraq ulu öndər Heydər Əliyevin sədri olduğu yeni Konstitusiya layihəsi hazırlayan komissiyaya təqdim etdi. Muxtar respublikanın yeni Konstitusiya layihəsi Azərbaycan Respublikası Konstitusiya layihəsini hazırlayan komissiyada dörd dəfə müzakirə edildi.

Konstitusiya layihəsinin müzakirəsi zamanı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov muxtar respublikanın konstitusiyasını əvvəlki konstitusiyalardan fərqləndirərək demişdir: ***"Naxçıvan MSSR-in 1978-ci il Konstitusiyasından fərqli olaraq bu Konstitusiyada muxtar respublikanın statusu və onun Azərbaycan Respublikasının Konstitusiyası, Moskva və Qars beynəlxalq müqavilələri ilə müəyyən edilməsi daha aydın görünür. Hakimiyyət bölgüsü, mülkiyyət formaları əvvəlki Konstitusiyaya görə daha dəqiq və genişdir".***

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun birbaşa rəhbərliyi altında və onun gərgin əməyi sayəsində hazırlanmış Konstitusiya layihəsi ingilis və fransız dillərinə tərcümə olunaraq rəy verilməsi üçün beynəlxalq təşkilatlara təqdim olunmuş, beynəlxalq ekspertlərin ümumiləşdirilmiş rəyinə görə layihə demokratik, hüquqi, dünyəvi dövlət quruluşuna təminat verməklə demokratik dövlətin siyasi və hüquqi təşkili prinsiplərinə uyğun hesab edilmişdir.

Layihənin son variantı ulu öndər Heydər Əliyevin 12 aprel 1998-ci il tarixli məktubu ilə müzakirə edilmək üçün Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə göndərildi. Bu layihə 15 aprel 1998-ci il tarixli "Şərq qapısı" qəzetində dərc edilərək ictimaiyyətin müzakirəsinə təqdim olundu. Komissiyanın 23 aprel 1998-ci il tarixli iclasında layihə daxil olan təkliflərlə birlikdə müzakirə edildi və qəbul edilmək üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarının müzakirəsinə təqdim edilməsi qərara alındı. 28 aprel 1998-ci il tarixdə təqdim olunan layihə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi tərəfindən qəbul edildi, Azərbaycan Respublikası Konstitusiyasının 156-cı maddəsinə uyğun olaraq iki dəfə – 30 iyun və 29 dekabr 1998-ci ildə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən Konstitusiya Qanunu ilə təsdiq edilərək dövlət başçısı tərəfindən imzalandı.

Muxtar respublikanın Konstitusiyası demokratik tələblərə cavab verməklə Naxçıvan muxtariyyətinin hüquqi əsaslarını özündə birbaşa əks etdirmişdir. Bu Konstitusiya Naxçıvanın müstəqil Azərbaycanın tərkibində qəbul edilmiş ilk milli Konstitusiyasıdır. Bu Konstitusiya daha lakonikdir, burada hüquqi norma və göstərişlər daha aydın və birbaşa əks olunmuşdur. İlk dəfə olaraq Əsas Qanunun özündə onun ən yüksək və birbaşa hüquqi qüvvəsinin olduğu göstərilmiş, qanunvericilik sisteminə daxil olan aktların əhatə dairəsi genişləndirilmişdir.

Naxçıvan Muxtar Respublikası Konstitusiyasında Naxçıvan muxtariyyətinin həm beynəlxalq hüquqla, həm də daxili hüquqla tənzimlənən aktlarını sadalamaqla Naxçıvanın məxsus olduğu zəngin dövlətçilik və muxtariyyət tarixinə qısa nəzər salınır və qeyd edilir ki, Naxçıvan muxtariyyətinin əsasları hazırda qüvvədə olan 16 mart 1921-ci il Moskva və 13 oktyabr 1921-ci il Qars beynəlxalq müqavilələri ilə qoyulmuşdur. Həmin beynəlxalq müqavilədə Naxçıvanın Azərbaycanın tərkib hissəsi olması bir daha bəyan edilərək Naxçıvanın ərazi hüdudları dəqiqləşdirilmişdir.

Naxçıvan Muxtar Respublikasının qüvvədə olan Konstitusiyası əvvəlki dövrlərdə qəbul edilmiş konstitusiyalardan fərqli olaraq yeni bir institut – "Ali vəzifəli şəxs" institutunu nəzərdə tutur. Naxçıvan Muxtar Respublikası dövlətçilik tarixində özünə xüsusi yer tutan, dövlətçilik atributuna çevrilən Ali vəzifəli şəxs institutu konstitusion status qazanmışdır. Naxçıvan Muxtar Respublikasında dövlətçiliyin varisliyini təmin etmək hüququ da konstitusion hüquqlarla Ali vəzifəli şəxsin səlahiyyətləri sırasına daxil edilərək onun üzərinə çox məsul və tarixi vəzifə qoymuşdur. Belə ki, Konstitusiyaya görə, Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədridir. Ali vəzifəli şəxs həm qanunvericilik, həm icra hakimiyyəti sahələrində Konstitusiya ilə müəyyən edilmiş səlahiyyətlərə malikdir.

Əsas Qanun insan və vətəndaş hüquq və azadlıqlarının, həmçinin vətəndaşların vəzifələrinin icrasının təmin edilməsində Azərbaycan Respublikasının Konstitusiyasının 3-cü bölməsində öz əksini tapmış müvafiq normalara bilavasitə istinad edir, muxtar respublikada yaşayan Azərbaycan vətəndaşlarına səsvermə hüququnu tanıyır.

Müasir dövrdə hüququn inkişafı demokratik islahatların aparılmasını zərurətə çevirmiş və bu zərurətdən qaynaqlanaraq ötən illər ərzində Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına bir sıra mütərəqqi əlavə və dəyişikliklər edilmişdir. 21 oktyabr 2005-ci il tarixli Konstitusiya Qanunu ilə Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına edilmiş əlavə və dəyişikliklər Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinə muxtar respublika ərazisində konstitusiya nəzarəti səlahiyyəti verilmiş, 30 dekabr 2005-ci il və 2 oktyabr 2006-cı il tarixli Konstitusiya Qanunları ilə Naxçıvan Muxtar Respublikası Konstitusiyasına edilmiş əlavələr və dəyişikliklər əsasında İnsan hüquqları üzrə müvəkkilin seçilməsi qaydası müəyyənləşdirilmiş, 30 sentyabr 2010-cu il tarixli Naxçıvan Muxtar Respublikası Konstitusiyasına əlavələr və dəyişikliklər edilməsi haqqında Konstitusiya Qanunu ilə Ali vəzifəli şəxsin səlahiyyətləri artırılmış, qanunvericilik təşəbbüsü hüququ subyektləri sırasına Naxçıvan Muxtar Respublikasının Prokurorluğu əlavə edilmiş, məhkəmə hakimiyyətinin fəaliyyəti təkmilləşdirilmiş, 15 noyabr 2011-ci il tarixli muxtar respublikanın Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında Konstitusiya Qanunu ilə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi hakimlərinin, eləcə də ümumi və ixtisaslaşdırılmış məhkəmələrin hakimlərinin təyin edilməsi proseduru dəqiqləşdirilmişdir. 24 aprel 2018-ci il tarixli "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi" haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanunu ilə Konstitusiyanın Naxçıvan Muxtar Respublikasında vətəndaşların seçki hüququnu tənzimləyən 8-ci maddəsi yeni redaksiyada verilərək adından və mətnindən məhdudlaşdırıcı ifadələr çıxarılmış, maddənin strukturu konstitusiya normalarına uyğunlaşdırılmış, gənclərin dövlət quruculuğunun bütün təbəqələrində iştirakına şəraitin yaradılması ilə bağlı 18 yaşı tamam olmuş, seçkilərdə iştirak hüququ olan hər bir şəxsə dövlət orqanlarında təmsil oluna bilmək hüququ verilmiş, deputatların məsuliyyətinin artırılması məsələsi də öz əksini tapmışdır.

Naxçıvan Muxtar Respublikasının Konstitusiyası muxtar dövlət statusunun möhkəmləndirilməsinə, sabit dövlət quruculuğunun genişləndirilməsinə, idarəçiliyin təkmilləşdirilməsinə, vəzifə və səlahiyyətlərin bölgüsü sahəsində demokratik prinsiplərdən istifadə edilməsinə xidmət etməklə konstitusiya quruculuğunun mühüm tarixi sənədi olmuşdur.

***Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mətbuat xidməti***

# Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının yekun iclası keçirilmişdir

*Dekabrın 28-də Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr haqqında" keçirilən müşavirədə qarşıya qoyulan vəzifələr və ilin yekunu ilə bağlı yığıncaq olmuşdur.*

Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının sədri Azər Zeynalov çıxış edərək demişdir ki, 2018-ci il dekabrın 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr haqqında" müşavirə keçirilmiş, qarşıya mühüm vəzifələr qoyulmuşdur. Naxçıvan Muxtar Respublikası Güləş Federasiyası da fəaliyyətini müşavirədə verilən tapşırıqların icrası istiqamətində qurur. Hazırda federasiyanın tərkibində yunan-Roma, sərbəst güləş, cüdo və sambo idman növləri üzrə qruplar fəaliyyət göstərir. Naxçıvan şəhərində, Şərur və Şahbuz rayonlarında yaradılmış bölmələrdə, ümumilikdə, 103 qrupda 1399 idmançı güləş idman növləri üzrə məşğələlərdə iştirak edir. Ötən müddətdə federasiya tərəfindən güləş idman növlərini inkişaf etdirmək, kütləviliyə nail olmaq sahəsində bir sıra işlər görülmüşdür. Belə ki, 2018-ci ildə Naxçıvan Muxtar Respublikası Güləş Federasiyası tərəfindən sərbəst güləş, yunan-Roma, cüdo və sambo idman növləri üzrə muxtar respublika, şəhər və rayon birincilikləri və çempionatları təşkil olunmuşdur. Həmçinin idmançıların müxtəlif səviyyəli beynəlxalq yarışlarda iştirakları tə-



min edilmişdir. Belə ki, federasiya idmançılarının ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunmuş cüdo üzrə beynəlxalq turnirdə, 23 yaşa qədər gənclər arasında Azərbaycan birinciliyində və İran İslam Respublikasının Miyanduab şəhərində keçirilən beynəlxalq turnirdə, gənclər arasında cüdo idman növü üzrə Azərbaycan birinciliyində, Bakı şəhərində sərbəst güləş üzrə paytaxt birinciliyində, Türkiyə Respublikasının Samsun şəhərində və İran İslam Respublikasında cüdo üzrə təlim-məşq toplantısında və beynəlxalq turnirlərdə iştirakları təmin edilmişdir. Ümumilikdə, 2018-ci ildə güləş idman növləri üzrə idmançılar 5 beynəlxalq, 7 ölkə və 2 muxtar respublika birinciliklərində, milli və dövlət bayramları ilə əlaqədar 20 daxili birincilikdə iştirak etmişlər. Azərbaycan birinciliklərində 9, beynəlxalq turnirlərdə 7-si birinci yer olmaqla, 31 medal qazanmışlar.

Qeyd olunmuşdur ki, 2018-ci ilin mart, sentyabr və noyabr aylarında Azərbaycan Cüdo Federasiyasının tanınmış məşqçi-müəllimləri muxtar respublikaya dəvət edilmiş, Naxçıvan Muxtar Respublikasının məşqçi-müəllim və idmançılarına seminar-treninqlər keçirilmişdir. Federasiyanın məşqçi-müəllim və idmançıları muxtar respublikada keçirilən tədbirlərdə yaxından iştirak etmiş, qrafikə uyğun olaraq muxtar respublikadakı muzeylərə gəzintiləri, asudə vaxtlarının səmərəli təşkili məqsədilə Ağbulaq İstirahət Mərkəzində "Yay məktəbi" təşkil olunmuşdur.

Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov çıxışında vurğulamışdır ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən müşavirədə nazirliyə və muxtar respublikada fəaliyyət göstərən idman federasiyalarına tapşırıqlar verilmişdir. Həmin tapşırıqlara uyğun olaraq 2019-cu ildə bir sıra tədbirlər həyata keçiriləcək, idmanın kütləviliyinə nail olunacaq, ölkə səviyyəli və beynəlxalq yarışlarda muxtar respublika idmançılarının iştirakı təmin ediləcəkdir.

Qeyd olunmuşdur ki, 2018-ci ildə nazirlik kütləvi bədən tərbiyəsi və idman sahəsində 330 tədbir keçirmişdir. Bunlardan 3-ü beynəlxalq, 55-i muxtar respublika, 220-si isə rayon, şəhər miqyaslı tədbirlər, yoldaşlıq görüşləri olmuşdur. Naxçıvan idmançıları respublika səviyyəli yarışlarda 105, beynəlxalq miqyaslı turnirlərdə 84, dünya səviyyəli yarışlarda 2, Avropa çempionatlarında 3, Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında 1 medal olmaqla, ümumilikdə, 195 medal qazanmışlar. İdmanın ən qədim növlərindən biri olan güləş idman növü ötən il Naxçıvan Muxtar Respublikasının idman həyatında kütləviliyi və qazanılan uğurları ilə idman ictimaiyyətinin diqqət mərkəzində olmuşdur.

Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının sədr müavini Faiq İsgəndərov 2018-ci ildə görülən işlər barədə məlumat vermişdir.

Güləş Federasiyasının məşqçi-müəllimi Seymur Məmmədov və idmançı Hüseyn Əhmədli çıxış edərək bildirmişlər ki, muxtar respublikamızda idmanın bütün növləri kimi, güləş idman növü də öz inkişaf dövrünü yaşayır. Son illərdə bu idman növünə gənclərin, xüsusən də azyaşlı uşaqların marağı artmaqdadır. Ali Məclis Sədrinin diqqət və qayğısı nəticəsində muxtar respublikada istifadəyə verilən uşaq-gənclər idman məktəbləri, idman obyektləri bu sahədə kütləviliyin təmin edilməsi baxımından mühüm əhəmiyyətə malikdir. Hazırda muxtar respublikamızda beynəlxalq və ölkə miqyaslı idman yarışlarının, genişmiqyaslı təlim-məşq toplantılarının keçirilməsi üçün hərtərəfli şərait vardır. Bu da qazanılan idman nəticələrinə öz müsbət təsirini göstərir. Muxtar respublikanın şəhər və rayonlarında güləş bölmələrinin fəaliyyətinin təmin olunması bu idman növünə göstərilən diqqət və qayğının təzahürüdür. Çıxış edənlər federasiyada fəaliyyət göstərən məşqçi-müəllim və idmançılar adından göstərilən diqqətə, yaradılan yüksək şəraitə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə dərin minnətdarlıqlarını bildirmişlər.

İl ərzində uğur qazanan cüdo üzrə məşqçi Orxan Quliyev, güləş üzrə məşqçilər Ayaz Bağırov və Cavid Salmanlı, cüdo üzrə uğur qazanan idmançılar Abbas Məmmədov, Fuad Əşrəfli, güləş üzrə uğur qazanan idmançılar Hüseyn Əhmədli və Xəzər Abdullayev mükafatlandırılmışlar.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Güləş Federasiyasının birgə iş planı və keçiriləcək idman tədbirlərinin qrafiki təsdiq olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının sədri Azər Zeynalov bildirmişdir ki, federasiya yaradılan şəraitdən səmərəli istifadə edərək dövlət idman siyasəti çərçivəsində qarşıya qoyulmuş tələb və tapşırıqları 2019-cu ildə də uğurla icra etməyə çalışacaqdır.

**"Şərq qapısı"**

# Konsert proqramı maraqla qarşılanıb





*Əlamətdar hadisələrlə dolu olan 2018-ci illə də artıq vidalaşmaq üzrəyik. Qarşıdan 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı gəlir. Bu günlərdə hər kəs vaxtını mənalı, səmərəli keçirərək 2019-cu ilə yüksək ovqatla, ruh yüksəkliyi ilə qədəm qoymağa çalışır.*

Hər il olduğu kimi, bu il də muxtar respublikamızda sakinlərə bayram günlərində şən əhval-ruhiyyə, mənalı istirahət bəxş etmək məqsədilə müxtəlif səpkili mədəni-kütləvi tədbirlərin təşkil olunması nəzərdə tutulub. Dekabrın 28-də “Nəqşicahan Holdinq Şirkətlər Qrupu” Məhdud Məsuliyyətli Cəmiyyətinin təşkilatçılığı ilə Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında keçirilən tədbir də bu qəbildəndir.

Əvvəlcə səhnəyə çıxan konsert proqramının aparıcısı bildirib ki, qədim Azərbaycan torpağı Naxçıvan 2018-ci ildə olduqca yaddaqalan, əlamətdar tədbirlərə ev sahibliyi edib. Bu il Naxçıvan şəhərinin İslam Mədəniyyətinin Paytaxtı və ölkəmizin Gənclər Paytaxtı seçilməsi ilə bağlı həyata keçirilən işlər qədim diyarın cəlbediciliyini daha da artırıb. Məhz buna görə də bugünkü konsertin burada keçirilməsi heç də təsadüfi deyildir.

Sonra tamaşaçıların səbirsizliklə gözlədiyi an yetişib. Azərbaycan Respublikasının Əməkdar artisti, tanınmış reper Mir Yusif Mirbabayevin səhnəyə çıxması böyük coşqu və sürəkli alqışlarla qarşılanıb. Bir-birindən maraqlı “Səndən olmaz”, “İki doğma insan”, “Gəl gör”, “Səndən bir dənədir” və digər mahnılar insanlarda xoş ovqat, əsl bayram əhval-ruhiyyəsi yaradıb. Mir Yusif Mirbabayev Naxçıvanda ilk dəfə konsert proqramı ilə çıxış etsə də, uşaqlığının burada keçdiyini deyib. Sənətçi qədim diyarın onun üçün doğma olduğunu bildirib və xoş qarşılandığına görə naxçıvanlılara təşəkkür edib. Konsertdə, həmçinin Dj Razy Freeman zövqoxşayan musiqi nömrələri ilə uşaq, yeniyetmə və gəncləri doyunca əyləndirib. Naxçıvanda ilk dəfə nümayiş olunan, müasir texnologiyalara əsaslanan robot və lazer şouları da tamaşaçılarda böyük maraq oyadıb.

**Nail ƏSGƏROV**

*Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə həsr olunmuş kikboksinq üzrə uşaq və yeniyetmələr arasında Naxçıvan Muxtar Respublika birinciliyi keçirilib.*

# Muxtar respublika birinciliyinə yekun vurulub

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Kikboksinq Federasiyasının birgə təşkil etdiyi birincilikdə 100-ə yaxın idmançı mübarizə aparıb. Birinciliyin reqlamentinə əsasən idmançılar 8-9, 10-11, 12-14 və 15-17 yaş qrupları üzrə 14 çəki dərəcəsində rinqə çıxıblar.

Olimpiya sistemi üzrə keçirilən birinciliyin yekun nəticəsinə əsasən 8-9 yaş qrupunda Fərman Bağırov (24 kiloqram), Oğuz Məmmədli (27 kiloqram) və Səid Abbaslı (30 kiloqram) qalib adını qazanıblar. 10-11 yaş qrupunda Uğur Əliyev (30 kiloqram), Sadiq Hacıyev (34 kiloqram) və Hüseyn Həsənov (38 kiloqram) hamıdan güclü olublar. Mehman Abbasov (39 kiloqram), Şəmsəddin Əliyev (42 kiloqram), Səhət Əsədov (45 kiloqram), İsmayıl Yaqubov (48 kiloqram) və Yarəddin Cəfərov (51 kiloqram) isə 12-14 yaş qrupunda birinci yerə layiq görülüblər. 15-17 yaş qrupunda Miryusif Seyidov (51 kiloqram), Qənbər Nağıyev (54 kiloqram) və Ayhat İmranlı (60 kiloqram) bütün rəqiblərinə qalib gələrək birinci olublar.

Komanda hesabında isə “Naxçıvan” komandası qalib adını qazanıb. “Şərur” komandası ikinci, “Turan” İdman Klubu üçüncü olub.

Sonda qaliblər diplom, medal və kubokla təltif olunublar.

**Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti**

# Bayram tədbirləri keçirilib

*31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Naxçıvan şəhər, Şərur, Babək, Ordubad və Culfa Rayon İcra hakimiyyətləri ilə birgə torpaqlarımızın bütövlüyü uğrunda şəhid olan Qabil Orucəliyevin, Orxan Quliyevin, Elnur Cəfərovun, Cəfər Cəfərovun, Mehdi Zeynalovun, Tural Həşimlinin evlərində bayram tədbirləri keçiriblər.*



Adıçəkilən təşkilatların nümayəndələri çıxış edərək bildiriblər ki, Vətən naminə, torpaqlarımızın bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin xatirəsi həmişə uca tutulur, ailə üzvlərinə həmişə diqqət və qayğı göstərilir. Ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşmüş və qəhrəmancasına həlak olmuş şəhidlərimizin ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, habelə mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması dövlətimizin sosial inkişaf kursunun əsas istiqamətlərindəndir. Bugünkü tədbirin də keçirilməsi onu deməyə əsas verir ki, dövlətimiz hər an şəhid ailələrinin yanındadır, onlarla həmrəydir.

Sonra tədbir iştirakçıları uşaqlara hədiyyələr verib, qarşıdan gələn bayramlar münasibətilə onları və ailələrini təbrik ediblər.

Şəhid ailələrinin üzvləri göstərilən diqqət və qayğıya görə dövlətimizə öz minnətdarlıqlarını bildiriblər.

Həmin gün 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə Naxçıvan Muxtar Respublikası Təhsil, Əmək və Əhalinin Sosial Müdafiəsi, Mədəniyyət nazirliklərinin, Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və Ordubad Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Ordubad şəhər Məhəmməd Füzuli adına tam orta internat məktəbində də bayram tədbiri təşkil edilib.

Bu gün isə Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzində Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin Gözdən Əlil Uşaqlar üçün Xüsusi İbtidai Məktəbində təhsil alan uşaqların da iştirakı ilə bayram tədbiri keçiriləcək.

**Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti**

# İllər ömür kitabının vərəqləridir...



*2018-in son günlərindəyik. Bir il də ömür kitabımızın bir vərəqini, beləcə, çevirdi, bir il də ötdü həyatımızdan, deyirik. Bəli, ötür, ötəcəkdir də, zaman adlı köhlən atı kim saxlaya bilər ki? O çapır, gün keçir ay olur, aylarsa illəri əvəzləyir. Fəsillər dəyişir... Bahar yay, payızsa qış olur. Necə də bənzəyir insan ömrünə. Bahar gənclik, yay orta yaş, payız qocalıq, qış da ahıllıq. Ötür zaman, insan elə ki bahardan yaya boylandı, oradan da payıza bir nəzər saldı, payızın füsunkar yarpaqtökümünü izlədi, deməli, bir il də yollanır öz arxivinə. Çünki yarpaqtökümü təbiətin yaşlanması, ahıl çağının çatması, bəyaz saçlarına sığal çəkərək bir ili də başa vurdum, deməsidir.*

Şair demişkən:

*Ağacdan yarpaqlar endikcə bir-bir,*
*İl də arxasından atır yükünü.*
*Təqvimin kötüyü üstündə əsir,*
*Tək qalan son varaq – ilin son günü.*

İlin tamamında ötən günlərə nəzər salan insan sanki onun qiymətini verir. “Bu il mənim üçün uğurlumu, uğursuzmu oldu”,– deyə ya onu ittiham edir, ya da əzizləyir, kaş ki heç bitməzdi, – deyir. Nədənsə, ilin son günlərində həmişə ötən illərlə bağlı xatırladığım anlar olur. Bu xatirələr sanki ömür vərəqlərinə hopubmuş kimi zamanı çatanda yenilənir, o günləri xatırladır bir daha – diyarımızın blokadaya salındığı ilk illəri. Qaranlıqda qarşıladığımız yeni illərimizi. Təbii qazın yoxluğu, ərzaq qıtlığı səbəbindən soyuq, qızdıra bilmədiyimiz evlərimizi, ürəyimiz istəyən kimi aça bilmədiyimiz süfrələrimizi, yeni ilin yeniliyini duya bilmədiyimiz anları. Fasilələrlə verilən elektrik enerjisinin gözəl yeni il proqramlarına baxdığımız yerdəcə kəsilməsi insanın yeni ildən gözləntilərini də kəsib doğrayırdı. Ötməkdə olan ilin son günləri yalnız bunu düşünürdük ki, görəsən, yeni ildə necə olacaq? Yenə yeni ilimizi qaranlıqda qarşılayacağıqmı? Görəsən, övladlarımızın xəyal etdikləri bir yeni il gecəsini onlara yaşada biləcəyikmi? Görəsən, bu işıq, qaz problemləri bizimlə birlikdə yenədəmi yeni ilə qədəm qoyub ili başa vuracaq?

Yüzlərlə insanın ilin son gecəsi düşündükləri yalnız bunlar idi. Böyük çillə insanların ən böyük dərdsərinə çevrilmişdi. Onun özü ilə bərabər gətirdiyi qışın gözəlliyi olan qarı, şaxtanı sevməməyə məcbur qalan insanlar elə ilin son günündəcə bahara doğru günləri sayırdılar. Bir qədər sonra budur, Kiçik çillə, ardınca Boz ay... Boz ay ilin ən qıtlıq dövrü olsa da, havaların mülayimləşməsi bir təsəllimiz idi. Bax, beləcə, o illərə hamı birlikdə – eyni qayğılarla yekun vururdu, hər ötən il hamı üçün eyni təəssüratlarla yadda qalırdı.

Bəli, düz bir onillikdən bir qədər də artıq köhnə ilə qaranlıqda əlvida deyib, yeni ilə qaranlıqda salam verib, əlini sıxdıq – bəlkə, bu yeni il hər şey düzələr – deyə. Deməli, ümidlər sarsılmırdı. Nə blokadanın ağır yükü, nə də ki qışın şaxtası, soyuğu bu ümidləri qamçılayıb yoxa çıxara, puç edə bilmirdi. Çünki yaxşı dərk edirdik ki, əsarət zəncirlərini öz əllərimiz ilə didib-dağıdıb, parça-parça edib ayaqlar altına atmışıq, müstəqil yaşamaq əzmi ilə mübarizəyə qalxmışıq. Tarixin heç bir dönəmində, dünyanın heç bir ölkəsində müstəqillik asan əldə olunmayıb. Bu yolda qanlar da axıdılıb, övlad, ər, sevgili həsrəti də yaşanıb, aclıq, səfalət də hökm sürüb. Lakin səbir, dözüm, iradə xoş günlərin, bəxtəvər illərin müjdəsi olub.

30 ilə yaxındır ki, muxtar respublikamız blokada şəraitində yaşayır. Lakin tarix özü bir paradoksal vəziyyət qarşısında diz çöküb illərdir ki, Naxçıvanı izləməkdədir. Və şahid olub ki, əsrlərə, qərinələrə tanış olmayan bir dövr yaşayır Naxçıvan. Tarixin səhifələrinə bir ilk həkk edir Naxçıvan: blokada və inkişaf...

İndi gecələri gündüzlərindən heç də fərqlənmir şəhər, qəsəbə, kəndlərimizin. Elektrik enerjisi, təbii qaz ən ucqar dağ kəndlərimizdə belə, bərq vurur, şölələnir. İndi burada çeşid-çeşid məhsul istehsal olunur, bazarlarımızı bəzəyir. Süfrələrimiz hər gün bayram süfrəsini xatırladır. Evlərimizdə bolluq, bar-bərəkət aşıb-daşır.

İslam Mədəniyyətinin Paytaxtı, ölkəmizin Gənclər Paytaxtı Naxçıvan 2018-ə əlvida deyir. Nə qonaqlar qarşıladı, nə qonaqlar yola saldı, onlara nə gözəlliklər, heyranlıqlar yaşatdı Naxçıvan... Nemətləri bol, süfrəsi açıq Naxçıvan... Qədim hüsnünün yeni çalarları ilə yolçunu yoldan edən Naxçıvan... Gələnləri-gedənləri valeh edib, ötməkdə olan ilin xatiratlarına özünü həkk edən Naxçıvan...

Budur, diyarımız başdan-başa yeni il libasını geyinib, hara baxırsansa, ürəyin dağa dönür. Bütün bu gözəlliklərin fonunda düşünürsən ki, nə yaxşı ki ötən illər yaşanıb, müstəqil olmuşuq. Nə yaxşı ki ötən illər yaşanıb, qədirbilən olmuşuq. Gəl, 2019, gəl, vərəqlə ömür kitabımızı. Gəl, əl-ələ verək, həmrəy olaq, yeni bir tarix yazmağa başlayaq. Şair demişkən:

*Qəlbimizin odundan*
*Alovlansın hər ocaq.*
*Biz nə zaman bir olsaq,*
*O gün bayram olacaq...*

Əlvida 2018, xoş gəldin 2019! Qədəmlərin uğurlu olsun. Böyük çillə qar yağdır, Kiçik çillə təndirlərin küfləsindən gir, bacasından çıx, qorxumuz yoxdur, evimiz, iş yerlərimiz, məktəblərimiz, bağçalarımızda sizlərdən qorunmağa hər cür şərait var.

Ey, Boz ay, sənin qıtlığına da indi çarə var. Dağlarımızın-dərələrimizin, zəmilərimizin, tarlalarımızın, bostanlarımızın, həyətlərimizin min bir neməti ilə doludur anbarlarımız. Artıq illərdir ki, gələcəyə böyük ümidlərlə baxırıq. Gəl, yeni il, gəl, aç ömür kitabımızın 2019-cu səhifəsini, yaz ora şairin bu misralarını:

*Ötür illər, fəsillər,*
*Günlər dönüb aylanır.*
*Ömrümüzə bu axşam*
*Bir gələcək boylanır...*

**Mətanət MƏMMƏDOVA**

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 935